## «2012-ci ildə vergi borcu olmadan» adlı aksiya keçirilmişdir

Vergilər Nazirliyi vergi ödəyicilərinin vergi qanunvericiliyi ilə müəyyən edilmiş öhdəliklərinin vaxtında yerinə yetirilməsi üçün məlumatlandırılması, habelə vergi borcu olan vergi ödəyicilərinə borcları barədə məlumatların fərdi qaydada çatdırılması məqsədilə «2012-ci ildə vergi borcu olmadan» adlı aksiyaya start vermişdir.

28-29 mart tarixlərində Vergilər Nazirliyinin nümayəndələri vergi ödəyicilərinə vergi bəyannamələrinin təqdim edilməsi və ödəmələrin vaxtında həyata keçirilməsi haqqında bildirişlər paylamış, borclu vergi ödəyicilərinin təsərrüfat obyektlərinə getməklə onlara borclarının olduğu barədə məlumatlar çatdırmışlar.

Borclu ödəyicilərin nəzərinə çatdırılmışdır ki, cari ilin 2 aprel tarixi hüquqi şəxslər üçün mənfəət, əmlak, yol vergiləri, fiziki şəxslər üçün isə gəlir vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergi ödəmələrinin aparılmasının, 20 aprel isə sadələşdirilmiş vergi üzrə bəyannamələrin təqdim edilməsinin son müddətidir.

Vergi ödəyiciləri aksiyadan razı qaldıqlarını ifadə edərək bildirmişlər ki, belə aksiyaların keçirilməsi, borclar barədə onlara vaxtında və fərdi qaydada məlumat verilməsi gələcəkdə bir çox problemlərin qarşısının alınması üçün ən təsirli vasitələrdən biridir.